Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Şeirimizin sübh çağı Mikayıl Müşfiq

**Mikayıl Müşfiqin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Şeirimizin sübh çağı Mikayıl Müşfiq:** Mikayıl Müşfiqin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 40 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Hər yerdə düzələn toy-büsat mənəm,
Ulduzlarla edən ixtilat mənəm.
Mənim azadlığım qucağa sığmaz,
Yer mənəm, göy mənəm, kainat mənəm.

***Mikayıl Müşfiq***

Qələm əhlinin ömrü kitablarının, hafizələrdə yaşayan misralarının ömrü qədərdir. Ona görə də onlara açılan qəfil güllələr, ömürlərini susduran hökmlər gücsüz və gülünc görünür. Bir anda ömürlərinə son qoyulan bu şəxsiyyətləri əsrlər boyu susdurmaq olmur. Belə sənətkarlardan biri də Mikayıl Müşfiqdir. Ümumiyyətlə, Mikayıl Müşfiq haqqında cəsarətlə demək olar ki, o, Azərbaycanın heç vaxt sönməyən, əbədiyanar və əbədiyaşar şairlərindən biridir. Müşfiq əbədi olaraq xalqın qəlbində, ədəbiyyatında yaşamaqdadır. Mikayıl Müşfiq təpədən dırnağa fitri istedad sahibi, sözün əsl mənasında qəlbin, ruhun şairidir. Həyat sevgisi, coşqun poeziyası, yaşına uyuşmayan müdrikliyi ilə çoxundan seçilən Mikayıl Müşfiq xalqına, millətinə bağlı bir söz sərrafı idi. Şairin şeirləri, onlara yazılmış mahnılar bu gün də qəlbləri oxşayır. Mübaliğəsiz demək olar ki, Müşfiq ən çox sevilən, oxunan nəğməkar şairlərdən biridir.

İyirmi doqquz yaşında repressiyaya məruz qalmış Mikayıl Müşfiq artıq 110 yaşındadır. İndi bu yubiley yaşını təəssüflər olsun ki, onsuz qeyd edirik... Belə qısa həyatına baxmayaraq, M.Müşfiq Azərbaycan xalqı üçün 29 illik ömrünə sığdırdığı əsl sənət xəzinəsini yadigar qoyub.

Mikayıl Müşfiqin 110 illik yubileyi münasibətilə yazılmış bu vəsait “Giriş” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. Vəsaitin “Giriş” hissəsində Mikayıl Müşfiqin həyat və yaradıcılığından söhbət açılır. İkinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## Giriş

Mikayıl Müşfiq 5 iyun 1908-ci il tarixində Bakıda anadan olub. Ziyalı ailəsində doğulan və əslən Azərbaycanın gözəl guşələrindən biri Xızı rayonundan olan Mikayıl Müşfiq iki aylığında anasını, altı yaşında isə atasını itirib. Valideynlərini belə erkən itirməsinə baxmayaraq şair həyatdan küsməyib və oxumağın, təhsilin dəyərini anlayaraq bu istiqamətə yönəlib. İbtidai təhsilini inqilabdan əvvəl rus-tatar məktəbində alan şair o zamankı Azərbaycan Dövlət Darülfününun dil və ədəbiyyat fakültəsini bitirib. M.Müşfiq əmək fəaliyyətinə pedaqoq kimi başlayıb. Mikayıl Müşfiq yeddi il Bakı orta məktəblərində müəllimlik etmişdir. Şairin son iş yeri olan 18 saylı Bakı şəhər orta məktəbi hazırda onun adını daşıyır. Poetik yaradıcılığa isə 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bir gün" adlı şeiri ilə başlayan M.Müşfiqin bundan sonrakı həyatı unudulmaz şeirlər, hekayələr yazmaq və ciddi bədii tərcümələr etməklə keçmişdir. 1930-1937-ci illərdə onun beş tərcümə kitabı nəşr edilmişdir. Bunlar A.S.Puşkinin "Qaraçılar" (Ş.Abbasovla birlikdə), Taras Şevçenkonun "Kobzar" (Əhməd Cavadla birlikdə), Yegişe Çarensin "Şeirlər", S.Y.Marşakın "Huşsuza bax, huşsuza", M.F.Axundovun "A.S.Puşkinin ölümünə şərq poeması" kitablarıdır.

Mikayıl Müşfiq 1938-ci il 6 yanvarda repressiya dövründə güllələnmişdir. Xatirəsini əbədiləşdirmək üçün Bakıda büstü qoyulmuş, qəsəbəyə, məktəbə, küçəyə və meydana adı verilmişdir. Mikayıl Müşfiqin Bakıda yaşadığı binanın qarşısına xatirə lövhəsi vurulmuşdur.

Görkəmli şairimiz Mikayıl Müşfiqin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını

gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş fotostendi, kitabları, ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Faciəli rolların baş qəhrəmanı Mikayıl Müşfiq", "Qara taleyin dastanı", "Ya rəbb, bu cinayət, bu xəyanət, bu səfalət, Bulmazmı nəhayət?", "Xalqın sevimlisi Müşfiq", "Xəyal poçtuna əmanət məktub", "Müşfiq yanğısı, Müşfiq fəryadı", "Şeirimizin sübh çağı", "Səni kim unudar", "Yelkənim açılır, qara yel əsmə", "Bu dünyada Müşfiq vardı", "Müşfiq ənənəsi bu gün", "Uç romantikam", "Müşfiq ürəklərdədir", "Müşfiqin həyat və sənət eşqi", "Gözəllik şairi", "Elə könül verən şair", "Müşfiq yaşayır, yaşayacaq", "Həyat aşiqi Müşfiq", "Gözəlliklə təmasda", "Şimşək ömrü", "Nəğməli misralar ustadı Müşfiq", "Yenə bizimlədir Müşfiq", "Sənət yeni-yeni adlar bulacaq, Kainat olduqca, Müşfiq qalacaq", "Əbədiyyət nəğməsi", "Sözümüzün, şeirimizin ömrünə ömür calamış, nakam ömürlü şair", "Müşfiqanə şeirlər", "Sevgim mübarizə, sevgilim həyat", "Azərbaycan poeziyasının Mikayıl Müşfiq zirvəsi", "Azərbaycan gəncliyinin milli ruhu onun şeiriyyətindən doğur", "Ey şanlı ölkəmin şanlı ustadı" və s.

# Kitab sərgisi















***Görkəmli şəxslərin Mikayıl Müşfiq haqqında söylədikləri fikirlər:***

Xalqa və vətənə məhəbbətlə yaşayıb-yaradan, həyat aşiqi olan Müşfiqin poeziyasında qızğın ilham, incə lirika, epik vüsət var. Bizi həyata, çağıran, xoşbəxtliyin mənasını açıb göstərən şeiriyyət var.

***

Müşfiq amalı böyük amaldır. Bu öz xalqını, vətənini ürəkdən sevən şairin amalıdır. Müşfiq poeziyasına qida verən, onu təravətləndirən və yaşadan da bu amaldır.

**Əkbər Ağayev,**
*professor*

Müşfiqin poemaları, nəğmələri, şairin həssas lirik nəfəsi, odlu-atəşli ürəyi öz doğma xalqı üçün hər yerdə, harada olursa-olsun dayanmaq bilmədən çırpınırdı.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

Müşfiq böyük istedad idi. On bir ildə o nə qədər gözəl şeir nümunələri yaratmışdır. Onda rahatlıq bilməyən həyat eşqi ilə, sənət eşqi ilə daim çırpınan bir ürək var idi.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Müşfiq doğrudan da gözəl insan, gözəl dost, gözəl şair idi.

**Süleyman Rüstəm,**
*Xalq şairi*

Müşfiq bir oddur ki, axırda öz-özünü yandıracaq.

**Hüseyn Cavid,**
*şair*

Sən vətən oğlu, xalq şairisən, xalq, vətən, səni unutmaz.

**Rəsul Rza,**
*Xalq şairi*

Mikayıl Müşfiq poeziyasını yaşadan başlıca xüsusiyyətlərdən biri də cürətdir, vətəndaş cürəti, sənətkar cürətidir. Bunu onun ötkəm fikirlərində də, əsərlərinin forma xüsusiyyətlərində də görürük.

**Qasım Qasımzadə,**
*Şair*

## *Mikayıl Müşfiq haqqında unudulmaz xatirələr*

M. Seyidzadə Mikayıl Müşfiqlə bağlı xatirələrində deyir: "Sevimli şairimiz Mikayıl Müşfiqlə mən ilk dəfə 1930-cu ildə yaxından tanış oldum. O zamanlar Maarif işçiləri evinin kitabxanasında işləyirdim. Müşfiq tez-tez kitabxanaya gəlirdi. Biz ədəbiyyatdan söhbət edib, yazdığımız şeirləri bir-birimizə oxuyurduq. Beləliklə, səmimi dost olduq. Müşfiq uşaqlar üçün bir neçə poema yazmışdır. Onun "Bir may", "Vuruşmalar" adlı kitabları çap olunmuşdur. 1934-cü ildə Müşfiq "Şəngül, Şüngül, Məngül" nağılını yaratdı. Yüksək şeiriyyəti, gözəl təbiət təsvirləri ilə nəzər-diqqəti cəlb edən bu mənzum nağıl balalarımız üçün dəyərli hədiyyə idi. Mikayıl Müşfiq istedadlı şair olmaqla bərabər, gözəl bir insan idi. O, həmişə şən və üzügülər idi. Müşfiqin ilhamı coşqun çaylar kimi idi. Onun əsərləri tez-tez mətbuat səhifələrində dərc olunurdu. Müşfiqin lirik şeirləri yurdumuzun çiçəkləri kimi rəngarəng və təravətlidir.

Müşfiq çox çalışmağı, yazıb, yaratmağı sevirdi. O deyirdi ki, mən hər gün şeir yazmalıyam. Elə buna görə də, gənc yaşlarında Müşfiq bir çox şeirlər, poemalar yazmışdır. Müşfiqin şeir

inciləri ədəbiyyatımızın xəzinəsini zənginləşdirmişdir. Onun odlu nəğmələrini xanəndələrimiz tez-tez oxuyur, şeirləri xalqımızın dillər əzbəri olmuşdur.

M. Dilbazi xatirələrində deyirdi: Müşfiq deyərkən yadımıza təzə cücərən ot, təzə açılan qönçə gəlir. O, həmişə xatirələrdə belə də qalacaqdır. Şairin nə özü, nə də əsərləri qocalacaq. Müşfiqdən bizə yadigar qalan əsərlər daim ətir saçacaq; həm də təzə qızılgüllər, qərənfillər, bənövşələr kimi...

Müşfiq gənc yaşlarından müəllim olmuşdur. Odur ki, uşaqlar onu, o da uşaqları çox sevərdi. O, harada bir uşaq görsə, dərhal dayanar, onu dindirərdi.

Günəş ona işıq, torpaq qüvvə, yaraşıq, vətən məhəbbəti coşqun nəğmələr bəxş etmişdi. Unudulmaz şairimizin yubileyi münasibətilə ona üz tutub deyirik:

Ürəkdə saxlayıb sənin yerini,
O coşqun, alovlu nəğmələrini
Günəşin altında oxuyuruq biz,
Əziz Müşfiqimiz, gənc Müşfiqimiz!

***Şeir müsabiqəsi*** – Nəğməkar şairin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də **"Sənət yeni-yeni adlar bulacaq, kainat olduqca, Müşfiq qalacaq"** adlı *şeir müsabiqəsidir*. Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir.

*Kitabxanaçı:* Aylı gecələrdə incilər xəzinəsi asimana baxarsınız... Ulduzlar...Yaxın görünən uzaq ulduzlar... Ulduz var ki, onu yerə düşürsələr asiman yaraşıqdan düşməz, ulduz da var ki, göylərin əlindən alınsa, göylər seyrəkləşər, çılpaqlaşar, göylər əliuzalı qalar.

Azərbaycan şeiri fəzasının nadir ulduzlarından biri Mikayıl Müşfiqdir. Onu üfüqlərdən yerə endirmək olmaz. O qədər yüksəkdir ki! Onun şəfəqlərini duman tuta bilməz. O qədər parlaqdır ki! Bu parlaqlığa könül verməmək mümkünmü? O qədər sevimlidir ki! Bu sevimliliyə ülvilik deyərlər. O qədər şairanədir ki!.. Bunlar Müşfiq mənəviyyatını yaşadan Müşfiq incəlikləridir. Bu incəliklər rənglərlə örtülən şəfəqlər, şüalarda saxlanan ahənglərdir. Bu incəliklər getdikcə daha da təravətlənəcək, qiymətlənəcəkdir. Çünki bunlar ən gözəl, ən doğru sənət nümunələridir. Bir şeir təşnəsi Müşfiq çeşməsindən daddıqca, susuzluğu yatar, susuzluğu yatdıqca susayar. Müşfiq incəliklərini görmək üçün onun şeirlərini dindirmək lazımdır.

Mən şeir yazmadım sevgiyə dair,
Neyləyim, ürəyim dinc oturmayır!

Mikayıl Müşfiq yazmaya bilməzdi! Yazmalıydı... Səhəri axşama, axşamı səhərə qatmalıydı, zehninin, qəlbinin təmasından nadir incilər partlamalıydı. Yaratmalıydı, fəqət yaşamalıydı. Yaşatdığını yaratdı, yaratdığını yaşatdı. Ömrünün 29 baharını yaşadı. 29 il... Bu bir şair ömrü deyil. Vəfa etməyən ömrünü saatbasaat, günbəgün, aybaay, ilbəil şeirinə fəda etdi. Getdi!.. Həyatına sığmayan bir aləm qoydu getdi. Qələmdən, şeirdən, dünyadan doymadan getdi. Şimşək kimi çaxdı, çaxması ilə yaxılması bir oldu və cavan getdi. Qocalmağa ömür vəfa etmədi, vaxtı olmadı. Vaxta sığmadı. Bahar kimi keçdi. Fəqət ona keçdi deyilməz. Çünki keçməyəcək!.. Ona keçmiş demək, gələcəyə göz yummaq deməkdir. Müşfiq şeirimizin gələcəyidir.

Onun yaradıcılığı  üfüqlər qədər geniş, şəfəqlər qədər parlaqdır. Cocuq təbəssümlü, ixtiyar təfəkkürlü Müşfiq...

*Kitabxanaçının dəyərli məlumatından sonra I iştirakçı M.Müşfiqin "Küsmərəm!" adlı şeirini söyləməyə başlayır.*

Mən şirin ləhçəli bir bülbüləm ki,
Güllərdən küsərəm, səndən küsmərəm!
Məni öz canından artıq istəyən.
Ellərdən küsərəm, səndən küsmərəm!
El içində bizə derlər Sayadlı,
Tərlan ovçusuyam, ruhum qanadlı.
İlham pərisinin açdığı dadlı
Dillərdən küsərəm səndən küsmərəm...

*II  iştirakçı Mikayıl Müşfiqin "Dilənçi" adlı şeirini söyləyir.*

Sərt, soyuq bir qış gecəsi... Səma bəyaz, yer bəyaz,
Uğuldayan küləklərlə sarsılmada soqaqlar.
Hər kimin ki, qanadı var çovğun olsa darılmaz,
Fəqət yenə bu soyuqdan qısılmada soqaqlar.
Gələn də var, gedən də var, mən də varam bu gecə,
Təbiətin dəhşətləri titrədiyor ətrafı.
Bir bucaqda yorğun titrək əlləri ilə kəmənçə
Çalan zəif bir ixtiyar inlədiyor ətrafı.

Yanında bir yavrusu var, yorulmadan çalıyor.
Kamançanın simlərindən qopan yanıq havalar
İnlədikcə, hər kəs ondan acı bir həzz alıyor.

Yellər dəxi vəlvələli ötüyorkən bu yoldan,
Yavaş-yavaş səslərini dəyişdirib bir qadar,
Onlar dəxi uzaqlarda, ağlıyorlar könüldən,

Ey ixtiyar, sən ey zalım, məzlum dolu illərin
Ürəklərə kədər saçan, ələm verən töhfəsi!

Acı dolu, əzab dolu,  zülm dolu illərin
Mərhəmətsiz fırçalarla qaralanmış lövhəsi!

Sənin artıq vaxtın ötmüş,
Səni dövran səfil etmiş.
Fəqət onu, o sevimli qızcığazı,
Olma razı,
Qış dondursun, günəş yaxsın.
Burax onun əllərini,
Burax onun tellərini.
Qoy buraxsın
Oxuduğu yanıq, xəstə havaları.
Burax, barı
Çağlıyorkən yurdumuzda yaşayışın sellərini,
Bəlkə öpsün  gözlərini səadətin yelləri.

*III  iştirakçı şairin "Ulduzlar" adlı şeirini deməyə başlayır.*

Bəzən titrəşərək parlayırsınız,
Göylər bağçasında lalələr kimi,
Bəzən yaş tökərək ağlayırsınız
Lalələr üstündə jalələr kimi.

Baxarkən süzülən gözlərinizə,
Deyirlər: nə qədər siz yovuqsunuz.
Həqiqətdə isə bir-birinizə
Siz çox iraqsınız çox soyuqsunuz...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Böyük şair Mikayıl Müşfiqin poeziyasını oxuculara çatdırmaq məqsədilə kitabxanada ***"Mən şirin nəğməli bir bülbüləm ki..."*** adlı seçilmiş ***əsərlərinin təhlili*** ilə bağlı tədbir keçirilə bilər. Bunun üçün kitabxanaçı oxucuları kitabxanaya cəlb edərək onları şairin yaradıcılığı və kitabları ilə tanış edir.

Oxucular onun ayrı adda kitablarını, xüsusilə də “Seçilmiş əsərləri” adlı kitabını oxuyub, şeirlərini dərindən mənimsəyirlər. Təyin olunmuş vaxtda oxucular kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbiri açıq elan edən kitabxanaçı hər kəsi salamladıqdan sonra Mikayıl Müşfiqin keşməkeşli ömür yolundan və coşqun yaradıcılığından danışır.
*Kitabxanaçı:* Bu dünyada şair çoxdur, dahi şairlər, istedadlı şairlər, nakam şairlər, Məcnun şairlər. Müşfiqi onların hər birinə aid etmək olar. Müşfiq şeirin özü idi. Başdan ayağa, ilk misrasından son misrasınacan poeziya mücəssəməsi idi.

O, ləbaləb dolu idi şeir ilə, sənət ilə,
Ölümdən də qorxmaz olan qüdrət ilə.

Bu misraları Müşfiq taleli Əli Kərim yazıb. Azərbaycan poeziyasında Əli Kərim qədər Müşfiqi xatırladan ikinci bir şair yoxdur...

Keçən günlərimi vərəqləyərkən
Sevdalı dillərin yadıma düşdü.
Xəyalın qarşımda canlandı birdən
Göyərçin əllərin yadıma düşdü.

Bu gözəl misralar Mikayıl Müşfiqə aiddir. Dünyanın heç bir şairi sevgilisinin əllərini göyərçinə – quşa bənzətməyib. Əgər bənzədilibsə, bu Müşfiqdən sonra olub.

Böyük şair, həyatı və yaradıcılığı bir vəhdətdə olan bütöv şəxsiyyət Mikayıl Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdən gəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığı, Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm edib sevdirməsi, vətəndaşlığı, cazibə qüvvəsilə oxucuların qəlbini ehtizaza gətirməsidir... Səmimiyyətlə dolu poeziyası barədə şair özü müasirlərinə müraciətlə yazıb:

Yazmaram ürəyim sizi anmasa,
Sizin eşqinizlə alovlanmasa,
El kəsib qarşımı burdaca sordu,
Gözdən yaş çıxarmı ürək yanmasa?

Söz yox, ürəkdən yazdığındandır ki, ürəklərdə yaşayır Müşfiq. Axı bu onun bir şair kimi ən böyük arzusu idi.

Hər kəs bilir həyatın sonu ölümdür,
Ah bu qəmli dəyişmə yaman zülümdür.
Şeirim! Bu gülünc oyun bəllidir yarın, bizi də bəklər,
Sən də öl mənim kimi, fəqət məzarın olsun ürəklər!

*I iştirakçı:* Müşfiq vətəndaş şair idi, cəsarətli idi, uzaqgörən idi. Azərbaycan poeziyasının ən parlaq səhifələrini yazmış Mikayıl Müşfiqin ömrü və yaradıcılığı Azərbaycan gəncliyinə bütün zamanlarda örnək olaraq qalmaqdadır. Mikayıl Müşfiq şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir. Hər bir gənc istənilən mövzuda M.Müşfiqin şeirlərindən istifadə edə bilər. Xüsusən də milli mənlik şüuru, vətənpərvərlik, vətənə sonsuz sevgi baxımından Mikayıl Müşfiq şeirləri ölçüyə gəlməzdir. Hansı şeir nümunəsi Mikayıl Müşfiqin "Oxu, tar!" harayına çata bilər?!. Mikayıl Müşfiqin "Oxu tar" harayı qəlbində vətən sevgisi olan hər bir insanı riqqətə gətirməyə qadirdir. Bu haray hər bir Azərbaycan gəncini mərdliyə, qəhrəmanlığa, döyüşə ruhlandırmağa, hətta Vətən sevgisinin nə olduğunu bilməyənlərə də anlatmağa qadirdir.

Oxu, tar, oxu, tar!
Səsindən ən lətif şeirlər dinləyim,
Oxu, tar, bir qadar,
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!..

O dövrdə bu ruhda şeir yazmaq şairdən böyük cəsarət istəyirdi. Bu elə bir dövr idi ki, yenilik şüarı altında milli musiqi alətlərimiz gözdən salınırdı. Bu elə bir dövr idi ki, sazın sındırılması, tarın ortadan götürülməsi təklifləri irəli sürülürdü. Böyük istedada və ürəyə malik Mikayıl Müşfiq isə milli

mədəniyyətə bütün varlığı ilə bağlı idi. Onun “Sındırılan saz” poeması və “Oxu tar” şeiri məhz milli musiqi alətlərini böyük cəsarətlə müdafiəyə qalxışan gözəl sənət incilərindəndir.
*II iştirakçı:* Gəncliyə bütün sahələrdə örnək ola biləcək Mikayıl Müşfiqin həyat yoluna qısaca bir nəzər salmaq yetər ki, bu əvəzsiz şəxsiyyətin vətənə, dövlətçiliyə, milli-mənəvi dəyərlərə necə bağlı olduğu təsdiqini tapsın.

M.Müşfiq vətənimizdən bəhs etdiyi “Ölkəm” şeirində o, sanki Azərbaycanı görmək istədiyi, arzuladığı kimi tərənnüm etmişdir. Müşfiq öz şeirlərində arzularını dilə gətirirdi. Elə bu da sonralar Müşfiqi ortadan götürmək üçün “qırmızı imperiyanın” əlinə bəhanə vermişdi. Müşfiqi “məhşər ayağına” çəkənlər ondan bu şeirlərin əvəzini çıxırdılar, hesab sorurdular. Onun yazdığı şeirlər isə yaz səhərində parlayan və heç vaxt sönməyəcək parlaq ulduz idi.

Dünyamızı seyr etdim min dürlü həvəslərlə,
Gördüm coşuyor dillər pək nəşəli səslərlə,
Baxdım doludur yarlar şən qəlbli kəslərlə,
Pək şad olaraq güldüm abad olan ölkəmdə.
Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə.

Baxdım ki, duman görməz yüksəkləri billuri,
İnsanları matəmsiz, istəkləri billuri,
Dağlar, ovalar, gülşən, hər bir yeri billuri,
Hər şey gülüyor gördüm, pək şad olan ölkəmdə.
Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə...

Vicdanları pək şəffaf, insanları nurani,
Müşfiq, bilə bildinmi, aləmdə şu dövranı?!
Qaplar yarın artıq sağ dünyaları ürfanı.
Hər yer güləcək, nura mötad olan ölkəmdə.
Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə.

*III iştirakçı:* Azərbaycan şeir tarixinə adını qızıl hərflərlə yazmağı bacaran Mikayıl Müşfiqin şeirləri yaşlı nəsillə bərabər,

gənclərin də dillər əzbəridir. Maraqlısı isə odur ki, ziyalılarımızın, böyüklərimizin, gənclərin kitaba, şeirə marağının azlığından şikayətləndiyi bir dövrdə M.Müşfiqin şeirləri ən passiv gənclərin belə yaddaşına həkk olunmağı bacarır. Yəqin ki, çox az adam tapılar ki, M.Müşfiqin "Yenə o bağ olaydı" şeirini ömründə bircə dəfə də olsa eşitməmiş olsun. M.Müşfiqin şeirlərini oxuyarkən adama elə gəlir ki, o yazdığı şeirlərdə gənclərin tərbiyəsi üçün bir konsepsiya tərtib edib. Onun vətən, ana, sevgili haqqında yazdığı şeirlərlə bəhrələnən, o şeirləri bütün varlığı ilə dərk edən gənclik yalnız yaxşı insan kimi formalaşa bilər. Sanki M.Müşfiqin bütün şeirləri insanın, gəncliyin mənəvi tərbiyəsi üçün yazılıb. Onun şeirlərində qadına yönəlmiş xüsusi diqqət, qadının bəşəriyyət üçün nə qədər uca varlıq olduğunun göstərilməsi hər bir gənc üçün örnəkdir. Bu şeirləri dərk edən oğullar vətəninə, anaya məhəbbəti öyrənməklə yanaşı, qadına hörməti də öyrənmiş olur. M.Müşfiqin şeirlərini dərk edən, onun vətənə, anaya, qadına, sevgiliyə həsr etdiyi şeirləri anlayan insan heç zaman cəmiyyətdə pis ad çıxara bilməz. Çünki bu mənəvi tərbiyə insana ən ülvi, ən romantik, ən müqqədəs hissləri duymağı öyrədir. Elə M.Müşfiqin şeirlərinin bütün nəsillər, xüsusən də gənclər tərəfindən sevilməsinin ən böyük səbəblərindən biri də yəqin ki, onun gəncliyin nəbzini tuta bilməsi olub.

Vətənini dərin bir məhəbbətlə sevən Mikayıl Müşfiq onu hər zaman abad, müstəqil, azad görmək istəyirdi. Mikayıl Müşfiq Azərbaycanın istiqlalını arzulayan, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını alqışlayan və bu münasibətlə gözəl şeirlərini yazıb, cümhuriyyəti təbliğ edirdi. Müşfiq "Ey Dan ulduzu" deyib ölkəsinin yeni baharını alqışlayırdı.

Dönmə bir şəbnəmə yaz səhərində,
Könül, günəş kimi parla yerində.
Göylərin lacivərd ətəklərində
Gedən bu qovğadan necə əl çəkim?
Baxınız, dan yeri sökülmüş kimi,

Dostlar bir cəbhəyə tökülmüş kimi,
Uzaqdan-uzağa xam gümüş kimi
Ağaran səhradan necə əl çəkim?

*IV iştirakçı:* M.Müşfiqin yəqin ki, ən təsirli şeirlərindən biri onun "Ana" şeiridir. Bu şeirin hər bir misrasını oxuyarkən insan təəccübünü gizlədə bilmir. İki aylığında anasını itirən M.Müşfiq "Ana" şeirində onu elə vəsf edir ki, bəlkə də uzun ömür yaşayan və bütün həyatı boyu ana nəvazişi ilə böyüyən bir şair belə "ana" nı belə tərənnüm edə bilməz.

Ana dedim, yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Ana, ana!... Bu kəlmənin vurğunuyam əzəldən,
Onu gözəl anlatamaz düşündüyüm satırlar.
Ana olmaz bizə hər bir "yavrum" deyən gözəldən,
Çünki onun xilqətində ayrıca bir füsun var...

*V iştirakçı:* Şairin əsərlərində bir məqam da diqqət çəkir. Bu onun öncüllüyü, uzaq görənliyidir. Müşfiq 90 il öncə "Telefon" şeirində bu gün məişətimizə, həyatımıza daxil olan video telefonu, skaypı vəsf edib:

Əvət, böylə qalmaz yarın bu ölkə,
Telefonda fikrimi açarkən sənə
Həsrətlə baxdığım üzün də bəlkə
Uzaqdan-uzağa görünər mənə.

Cəmi 29 il ömür yaşayan, özündən sonrakı nəsillərə bəlkə də yaşlı bir qocanın belə ömrünə sığışmayacaq qədər romantik şeirlər irsi qoyan M.Müşfiqin daha bir şeiri isə gənclər üçün sevginin bütün formalarını ümumiləşdirdiyi "Sevgilər" şeiridir.

Sevgi vardır ki, dodaqlarda açar güllərini,
Sevgi vardır ki, bir az qar kimi, rüzgar kimidir.

Sevgi vardır oxudur qəlbidə bülbüllərini,
Böylə bir sevgi mənim ruhumu oxşar kimidir.
Sevgi vardır ki, uzaqdan bizə parlaq görünür,
Ona yaxlaşmayalım, çünki o zülmətlə dolu.
Sevgi vardır ki, düşər yerlərə daim sürünür,
Öylə bir sevgi də min dürlü xəyanətlə dolu.
Sevgi vardır ki, bahardan bizə güllər gətirir
İçi zəqqum və zəhər, qoxlama, qəlbin qanayar.
Sevgi vardır üzü xoş, daxili bir qorxulu yar.

Həqiqətən də hər bir ölkənin inkişafında ən böyük rollardan birini onun mənəviyyatı oynayır. Tanrıya şükürlər olsun ki, o mənəvi irsi bizə M.Müşfiq kimi şairlərimiz qoyublar. Gənclərin üzərinə düşən vəzifə isə bizə əmanət olunmuş mənəvi irsi öyrənməkdən, ruhumuzu o mənəvi irslə tərbiyələndirməkdən ibarətdir. Hazırda dünya alimləri eksperimentlər aparıblar və sübut olunub ki, uşaqlıqdan mənəvi aclığı doydura bilən vətən, ana haqqında, ümumiyyətlə, sevgi ilə bağlı şeirləri oxuyaraq böyüyən uşaqlarla, adi uşaqlar arasında kəskin şəkildə fərq olur. Belə ki, birincilər həyata daha yumşaq baxır, cinayət əməllərindən, dələduzluqdan, ədalətsizlikdən uzaq həyat yaşayırlar. Bu səbəbdən də M.Müşfiq kimi şairlərimizin şeirlərini nə qədər tez-tez oxusaq və uşaqlarımızı da körpəlikdən bu ruhda tərbiyə etsək, onların da, özümüzün də sağlam gələcəyini təmin etmiş olarıq.

Kitabxanada yubileylə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları, məktəbliləri maarifləndirmək adına kitabxanaçı məktəblərlə birgə mütəmadi tədbirlər keçirir. Belə tədbirlərdən biri də *"Mikayıl Müşfiq və dünya ədəbiyyatı"* adlı **məktəblilərlə söhbət** adlanır. Kitabxanaçı məktəbin oxu zalına toplaşan oxuculara nakam şair M.Müşfiq haqqında məlumata keçid verir.

*Kitabxanaçı:* Mikayıl Müşfiq Nizami, Nəsimi, Natəvan, Vaqif, Hadi, Cavid kimi görkəmli söz ustadlarından söz öyrənsə də, ən çox sevdiyi şair Füzuli və Sabir idi. Füzulidən sənətkarlıq

sirlərini öyrənən şair onun adını şeirlərində tez-tez çəkmiş, dahi sənətkardan böyük məhəbbətlə bəhs etmişdir. “Teyflər keçidi” adlı poemasında Sabirin obrazını yaratmış, bundan başqa böyük Azərbaycan satirik şairinə ayrıca şeir də həsr etmişdir.

Mikayıl Müşfiq doğma klassiklərlə yanaşı türk və fars klassik şeirlərindən də faydalanmışdır. Dahi türk şairi Əbdülhəq Həmid başda olmaqla Tevfik Fikrət, Rza Tevfik, Yəhya Kamal, Orxan Seyfi, Faruq Hafiz, Nəcib Fazil kimi mütərəqqi ruhlu şairlərin yaradıcılığına hörmətlə yanaşırdı. Professor Əkrəm Cəfərə 1929-cu ildə yazdığı məktubunda XX əsr türk şairlərindən məhəbbətlə bəhs edir. Dahi fars şairi Firdovsinin “Şahnamə” dastanını və dünya şöhrətli Ömər Xəyyamın rübailərini yüksək sənətkarlıqla tərcümə etməsi Müşfiqin İran şairlərinə olan ehtiramını təsdiq edir. Xatirələrdən öyrənirik ki, Mikayıl Müşfiq fars dilini yaxşı bilirdi. Məhz buna görə də onun tərcümələri bu gün də öz bədii təravətini saxlamaqdadır. Ömər Xəyyamın rübailəri onun tərcüməsində daha gözəl, daha dəqiq, daha poetik səslənməlidir. Müşfiqin klassik Şərq poeziyası incilərinin böyük bir qismini hafizəsində yaşatması barədə də az yazılmamışdır. Şairin müasirlərinin yazdığı xatirələrdən öyrənirik ki, o, Füzulinin, Vaqifin, Hamidin, Fikrətin, Hadinin, Cavidin onlarla şeirini əzbər söyləməklə zövq alırdı. Otuzuncu illərin vulqar sosiologizm nəzəriyyəsinə uyan gənc qələm sahibləri ilə barışmayan Müşfiq klassik irsə arxa çevirənlərə qarşı çıxırdı. 1932-ci ildə qələmə aldığı “Yeni il” başlıqlı silsilə şeirlərində Füzuliyə xor baxanlara üzünü tutub deyirdi:

Utanmazmı Füzulinin adını çəkən
özü bir heçkən..
... “Qızaran ulduzların şairi”
Hanı sənin dörd yüz sənə
dönə-dönə
Yaşayacaq dastanın?
Gəl çəkmə özünü yuxarı,
O düha qartalının qanadları

Bu gün belə çırpınır
Qaralan qaşlarda,
Dağlarda, daşlarda.
... Yazalım, özümüzü əyməyəlim
Füzuliyə "dəyməyəlim!"

Klassik şərq poeziyasına dərin məhəbbət bəsləyən şair Qərbi Avropa ədəbiyyatına da maraq göstərirdi. Onun şeirlərində dünyanın bütün xalqlarına böyük rəğbət, ədəbiyyatına da məhəbbət vardı. Dahi rus şairi A.S.Puşkinə bəslədiyi sevgi onu Bayronla maraqlandırmışdı. "Şair və vətəndaş" poemasındakı:

Bayron da sevmişdi bu təbiəti,
İldırım hiddəti, bulud riqqəti.
Onun da şeirində çaxdı, ağladı,
O da, bu şeylərə baxdı, ağladı.

Kimi misralar şairin Bayron sənətindən xəbərdar olduğuna sübutdur. Bunu da nəzərə almalıyıq ki, şairin yaşadığı dövrdə dahi ingilis şairinin əsərləri ana dilimizə hələ çevrilməmişdi. Deməli, Müşfiq Bayronun şeirlərini yalnız rus dilində oxuya bilərdi. Onun şeir şəkilləri Şərq və Qərb poeziyasının sintezindən doğmuşdur. Məhz belə bir geniş diapazona malik olmaq Müşfiqi novator şair səviyyəsinə gətirib çıxarmışdır.

Mikayıl Müşfiqi və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada bir çox tədbirlər keçirmək olar. Bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Mikayıl Müşfiqin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı məktəb şagirdləri ilə Mikayıl Müşfiqin bir sıra hekayələrini ***səhnələşdirə*** bilər. Tədbiri ilk olaraq kitabxanaçı açıq elan edir və şair haqqında məlumat verir. Tədbir ***"Müşfiqin uşaqlara məhəbbəti"*** *başlığı altında keçirilir.*

*Kitabxanaçı:* Mikayıl Müşfiq uşaqları çox sevirdi. Onların xoşbəxt yaşamalarını ürəkdən arzu edirdi. Elə buna görə də onlar üçün maraqlı əsərlər yazıb-yaradırdı. Müşfiq zamanəmizin ən dəyərli, sevilən uşaq şairi kimi də ədəbiyyat tariximizdə iz qoyub. Şairin "Şəngül, Şüngül, Məngül" mənzum nağılı, "Kəndli və ilan" mənzum nağılı, "Qaya" poeması uşaq ədəbiyyatımızın nadir incilərindəndir. M.Müşfiqin uşaqlar üçün yazdığı "Coğrafiya", "Məktəbli şərqisi", "Zəhra üçün" şeirləri də maraqlıdır. Şairin zəngin ədəbi irsinə şeirdən tutmuş poemayadək ("Çoban", "Mənim dostum", "Qaya", "Sındırılan saz", "Səhər", "Azadlıq dastanı") lirik növün əksər janrları daxildir. Şair bu əsərlərdə həyati lövhələrini, insanların mənəvi aləmini inandırıcı şəkildə açıb. Uşaq oxucularını adətən dörd qrupa bölürlər: bağça yaşlı uşaqlar, azyaşlı məktəblilər, orta yaşlı və böyük yaşlı məktəblilər. Aydındır ki, bu bölgünün hər birinə aid yazılan əsərlər öz məzmunu, səviyyəsi və bədii dili etibarilə fərqlənir. Bu isə sənətkardan həssaslıq, uşaq psixologiyasına yaxından bələd olmaq, onu incəliklərinə qədər duymaq və s. kimi keyfiyyətlər tələb edir. Azyaşlı uşaqlar üçün yazılmış "Şəngül, Şüngül, Məngül" mənzum nağılı şairin ən qiymətli, ən maraqlı uşaq əsərlərindən biridir. Ona görə də bu əsər uşaqların dərin məhəbbətini qazanmış, əldən-ələ gəzən kitablar sırasındadır. Həm də xalqımız içərisində uzun zamandan bəri yaşayan bu nağılı yazılı ədəbiyyatımıza poeziya dili ilə gətirən Mikayıl Müşfiq olmuşdur. Ümumiyyətlə, düşünmədən demək olar ki, M.Müşfiqin uşaqlara həsr etdiyi əsərlər uşaq ədəbiyyatımızın ən yaxşı əsərləri sırasındadır.

Mikayıl Müşfiq klassik ədəbiyyatımıza qırılmaz tellərlə bağlı olan şifahi xalq ədəbiyyatı qaynaqlarından qidalanan, öyrənən bir sənətkardır. Hələ uşaqlıqda şifahi xalq ədəbiyyatı ilə tanış olmasında şairə nənəsi Qızqayıt böyük təsir göstərmişdir. Həmin qadının sinəsi Azərbaycan xalq nağılları, atalar sözü, bayatılar, zərb məsəlləri, laylalar ilə dolu idi. O, bildiklərini istəkli nəvəsinə danışmağı sevərdi. Olsun ki, "Şəngül, Şüngül,

Məngül" nağılını da şair ilk dəfə nənəsindən dinləmiş, uzun zaman onu hafizəsində saxlamış, vaxtı çatanda şairi öz uşaqlıq həyəcanlarını, ana keçinin acgöz qurda qələbəsi ilə doğan sevincini balaca dostları ilə bölüşdürmək fikrinə gətirib çıxarmışdır.

Hər sabah, gün doğar-doğmaz,
Qaranlığı boğar-boğmaz,
Keçi yatağından durub,
Şəngülün halını sorub,
Şüngülə nəzər salardı,
Məngüldən öpüş alardı.
Qapıları gülə-gülə
Bağlayıb çıxardı çölə.

Mənzum nağılda qayğıkeş keçidən, onun balaları Şəngül, Şüngül, Məngüldən, yırtıcı qurddan, rüşvətxor qazıdan və zəhmətkeşlərin tərəfində dayanan dəmirçidən danışılır. Keçi və dəmirçi ədalətin, qurd və qazı isə zülmün timsalı kimi səciyyələndirilmişdir. Əsərin sonunda həqiqət zülmə qalib gəlir. Qurddan intiqam alan keçi qürurla ona deyir:

Balalarımı yeməyəydin,
Vay qursağım deməyəydin.

Keçinin balaları Şəngül, Şüngül, Məngülün özlərinə məxsus xüsusiyyətlərlə verilməsi müəllifin böyük müvəffəqiyyəti sayılmalıdır. Şair Şəngülü balaca dostlarına belə təqdim edir: Bir yaşındadır, gözləri qara və tükü buruq-buruq, buynuzları yenicə çıxmışdır, buxağında qotazları var.

Şüngül isə oxucunun gözləri qarşısında belə canlandırılır:

Şüngülün gözləri nərgiz,
Sanki dünyadan xəbərsiz.
Gecə-gündüz oynaqlardı,
Anasını qucaqlardı.
Yuxa tükü bəyaz, yumşaq,

Qulaqları sanki zambaq.
Alnındakı qaşqa gözəl,
Yoxdu bundan başqa gözəl.

Məngülün isə səciyyəvi cəhətləri müəllifin təsvirində belədir:

Təpəldir, ayağında cəkili var, nazlıdır, yumşaq tükü ala-buladır, özü də başqa bəladır – yaman nadincdir.

Çəpişlərin bu şəkildə bir-birindən fərqlənməsi balaca oxucuların yadında möhkəm qalır. Və əsərin təsir gücünü qat-qat artırır.

Əsərdə yerinə düşən təbiət təsvirləri, ustalıqla çəkilən gözəl lövhələr diqqəti cəlb edir. Müəllif kənd axşamını böyük ustalıqla təsvir edir:

Qaş yenicə qaralırdı,
Günəş solur, saralırdı.
Şövqü düşürdü dağlara,
Çəkilirdi uzaqlara.
Ağ buludlar dəstə-dəstə,
Göy üzündən dağlar üstə
Yüngül kölgə salırdılar,
Parçalanıb qalırdılar.

Şairin sevilən əsərlərindən biri olan “Şəngül, Şüngül, Məngül” əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik. Öncə səhnə əsərə uyğun olaraq hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Onlar növbə ilə səhnəyə yaxınlaşaraq poemadan hissələr deməyə başlayırlar.

*Tədbirin sonunda iştirakçılar mükafatlandırılır.*

***Konfrans*** – Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *“Müşfiq yanğısı, Müşfiq fəryadı”* adlı **konfrans** da keçirilə bilər. Konfransa tarixçi və tədqiqatçılar, ədəbiyyatşünaslar və ümumilikdə müşfiqsevərlər dəvət edilə bilər. Səhnəyə yön alan kitabxanaçı hər kəsi salamladıqdan və şair haqqında məlumat verdikdən sonra sözü iştirakçılara verir.

**I iştirakçı:** Hamımızın sevə-sevə oxuduğu və dinlədiyi sətirlər müəllifi şair Mikayıl Müşfiq qısa ömrünə baxmayaraq, maraqlı və orijinal əsərləri ilə ədəbiyyatımızda dərin iz qoyub. Mikayıl Əbdülqadir oğlu İsmayılzadə 1908-ci il iyunun 5-də Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Atası "Səadət" məktəbində müəllimlik edib, şeirlər yazıb.

1931-ci ilin mayında Müşfiq Azərbaycan Dövlət Pedaqoji İnstitutun buraxılış gecəsində Dilbər adlı qızla tanış olur. Ona olan sevgisi şairi yeni lirik şeirlər yazmağa ruhlandırır. Gənclərin toyu 1933-cü ilin yayında olur. Müşfiqin çox sevdiyi Rəsul Rza və Nigar Rəfibəyli bir neçə gün sonra onları təbrik etməyə gəlir. O vaxt R.Rzanın xəyalına belə gəlməzdi ki, illər ötdükdən sonra bu gənc oğlanın xatirəsinə "Qızılgül olmayaydı" poemasını yazacaq. Hüseyn Cavid, Mirzə İbrahimov, Süleyman Rüstəm, Sabit Rəhman, İsrafil Nəzərov bu evin çox sevilən qonaqlarından olublar...

**II iştirakçı:** Boş vaxtlarında tar çalmağı sevən M.Müşfiq tarzən Qurban Pirimovla da dostluq edib. Bir dəfə Q.Pirimov onlarda olanda şair tara həsr etdiyi "Nə deməkdir" adlı şeirini oxuyub. Bundan təsirlənən tarzən "Yetim segahı" səsləndirib. Hamımızın sevdiyimiz "Oxu tar!" şeirini də Müşfiq həmin gün o melodiyanın sədaları altında yazıb. Bu o günlər idi ki, Azərbaycanda tarın qadağan edilməsi ilə bağlı fikirlər səsləndirilirdi...

M.Müşfiqin heyrətamiz hafizəsi var idi. Rus tərcüməçisi, məşhur şair Yaroslav Smelyakov onun haqqında yazıb: "...Müşfiq – poetik temperamenti sönməyən insandır, o, yeni poetik və təsvir vasitələri və formalarını yorulmadan axtarırdı. Yekunda "Sındırılan saz" poeması kimi incini yaradıb... O tələsirdi, taleyin ona az ömür payı verdiyi sanki ürəyinə dammışdı".

30-cu illərin sonunda sanki ədəbi tənqid birbaşa Müşfiqə qarşı yönəlmişdi. Bu elə belə deyildi, çünki, dövrün böyük

ədibləri Müşfiqə böyük dəyər verirdilər. Böyük Hüseyn Cavid əfəndi Müşfiqi "Gələcək şeirimizin tacidarı", müasirləri isə onu dövrün Füzulisi adlandırırdılar. S.Vurğun isə deyirdi ki, məni yalnız Müşfiq keçəcək və s. Təbii ki, bədxahların bu fikirləri qısqanclıq yaratdığından şair yerli-yersiz tənqid atəşinə tutulurdu. Bu zaman onları dəf etmək üçün Müşfiq Stalin haqqında şeir yazır. Məzmununa poetik ruhuna, sənətkarlıq meyarlarına görə bu şeir o dövrdə Stalinə həsr olunmuş bütün əsərlərdən üstün hesab olunur.

Cahan dairəsi bir üzük kimi
Üstünün ən böyük gövhəri sənsən
Tarixin darısqal keçidlərində
Bəşərin xilaskar rəhbəri sənsən!..

Bir müddət bu şeirdən sonra Müşfiqə qarşı olan hücumlar, ədəbi tənqid səngidi. Lakin zaman şairin əleyhinə işləyirdi.

Saf qəlbli şair mətbuatda haqqında çıxan təhqir, böhtan dolu kəskin tənqidi məqalələrdən çox mütəəssir olurdu. Məhz bu qəbil məqalə və yazılar, çıxışlar Müşfiqin ölümünə hökm oxunmasına, onun qətlə yetirilməsinə rəvac vermişdir. Yazıçıların növbəti plenumunda M.Müşfiqə əksinqilabçı damğası vuruldu. O, əksinqilabi milli təşkilatın üzvü, sovet hakimiyyətinə qarşı silahlı üsyana hazırlıqdan xəbərdar olmaqda ittiham edildi. M.Müşfiqi 1937-ci il iyunun 4-də evində həbs etdilər. Həbsdən qabaqkı axşam oxucuları ilə görüşdən gec qayıdan şair evdə onu gözləyən Dilbərin yanına tələsdiyindən yaxınlıqda dayanan qara maşına fikir verməmişdi. Müşfiq mənzilinə daxil olduqdan sonra qapının zəngi çalındı... Gələn adamlar M.Müşfiqi heç yaxınları ilə də vidalaşmağa qoymadılar.

1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsinin hərbi səhra kollegiyasının 20 dəqiqəlik məhkəmə iclası M.Müşfiqin barəsində güllələnmə qərarı verdi. Hökm bir neçə saatdan sonra – yanvarın 6-na keçən gecə icra olundu. ...Bədxahlar elə bildilər

ki, Mikayıl Müşfiqi fiziki məhv etməklə onu xalqın yaddaşından, bütövlükdə Azərbaycan ədəbiyyatı tarixindən siləcəklər. Lakin... yanıldılar. Əksinə Müşfiq yaşadı, xalqın yaddaşında əbədilik qazandı. 29 yaşlı Müşfiq sanki 80-100 il ömür sürmüş bir ədib qədər ədəbi irsini bizə miras qoydu... Əslinə qalanda Müşfiq bu günü gözləyirdi, o dövrün ab-havasından bunu duymuşdu. Hətta şeirində bu haqda deyirdi:

Mən gəncəm, bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel əsmə,
Mənim bu dünyada bir sandalım var.

**III iştirakçı:** Təkcə Müşfiq özü yox bütün ailəsi repressiyanın qurbanına çevrildi. Həyat yoldaşı Dilbər Axundzadə tək adamlıq kamerada ağır işgəncələrdən sonra əsəb sarsıntısı keçirdi, ruhi xəstəxanaya yerləşdirildi. Bacısı Böyükxanım onu aparmağa gələn NKVD işçilərindən bəhanə ilə aralanaraq mətbəxə keçib, üstünə ağ neft tökərək odlamış və həlak olmuşdur. Kiçik bacısı Balacaxanım isə istintaq zamanı müstəntiqin həqarətlərinə dözməyərək, masadaki su qrafinini onun başına çırpmış, həbs edilərək sürgün həyatı yaşamağa məhkum olunmuşdur. Bəraətdən sonra psixoloji durumda tək ömrünü başa vurmuşdur. Bu, bir ailənin faciəsi, repressiyanın günahsız qurbanları deyilmi?...

**IV iştirakçı:** Deyirlər ki, həyatının ən son saatlarına qədər o, ölümünə inanmayıb. Həyat yoldaşı Dilbər xanım xatırlayır ki, onların həbsxanada son görüşündə Müşfiq kədərli halda ölümqabağı hisslərini gizlətməyə çalışaraq deyib: “Sən narahat olma. Əvvəl-axır, tez ya gec hər şey aydınlaşacaq. Biləcəksiniz ki, bizim heç nədə təqsirimiz olmayıb...”

Lakin bu təxminən 20 il keçəndən sonra baş verdi. Beləki, ölkə şəxsiyyətə pərəstişin dəhşətindən özünə gəldi və Azərbaycanın məşhur yazıçıları M.Müşfiqin işinə yenidən baxılması barədə müraciət etdilər. 1956-cı il mayın 23-də SSRİ

Ali Məhkəməsinin hərbi kollegiyasının qərarına əsasən Mikayıl Əbdülqədir oğlu İsmayılzadə bəraət qazandı.

Əlbəttə, repressiya tufanının apardığı yazıçı və şairlərdən heç kəs silahlı üsyan hazırlamamışdı. Lakin böyük həqiqət ondadır ki, onlar Azərbaycan Xalq Cümhuriyyətinin qısa dövründə azadlığın sevincini dadmışdılar və vətənin müstəqilliyini arzulayırdılar. Onların bu arzuları yarım əsrdən sonra həyata keçdi.

***Kitab müzakirəsi*** – Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi kitab müzakirəsi də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə M.Müşfiqə həsr olunmuş, onun ömür-gün yoldaşı Dilbər Axundzadə tərəfindən qələmə alınmış ***"Müşfiqli günlərim"*** adlı **kitabını müzakirə** edə bilərlər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir.

*Kitabxanaçı:* Qəlbdə ilk eşqin odu,
Sağa-sola boylandım.
Harda bülbül oxudu,
Mən onu Müşfiq sandım.

Ürək yandı həsrətlə,
Yandırdı dağı-daşı.
Qaynadı bulaq kimi
Axdı gözümün yaşı.

Baharım harda qaldı,
Ay mənim bahar baxtım.
Yadıma Müşfiq düşdü,
Bağda bülbülə baxdım.
Elə bildim o sənsən,
Döyünən ürəyimsən.
Ana Vətən qoynunda
Mehimsən, küləyimsən...

Dilbər Axundzadənin “Müşfiqli günlərim” adlı xatirələr kitabı 1968-ci ildə Bakıda nəşr olunmuşdur. Kitabın son genişləndirilmiş nəşri 2005-ci ildə “Gənclik” nəşriyyatında işıq üzü görmüşdür. Bu kitabda toplanmış xatirələr ölməz şairimiz Mikayıl Müşfiqin ömür-gün sirdaşı, şəxsiyyətə pərəstiş illərində başı müsibətlər çəkmiş Dilbər Axundzadənin könül çırpıntılarıdır. “Müşfiqli günlərim” Dilbər Axundzadənin sağlığında bir neçə dəfə işıq üzü görmüşdür. Dilbər xanım bu kitabdan sonra müxtəlif dövrlərdə, məqalələr, xatirələr, şeirlər yazmışdır. Bu yazılar da bir növ “Müşfiqli günlərim”in davamıdır. Kitaba filologiya elmləri namizədi Cəlal Qasımovun “Dilbər Axundzadə nə üçün həbs edilmişdir?” məqaləsi və publisist Rafiq Rəhimlinin Dilbər xanımın vəfatının ildönümünə həsr etdiyi “Sən neyçün ağlarsan” essesi də daxil edilmişdir. Kitabın ön sözünü yazan Dilbər Axundzadənin qızı Leyla Axundzadənin bu sözləri diqqəti cəlb edir: “ Mən onun Müşfiqli günlərini görməmişəm, ancaq Müşfiqsiz günlərinin çox şahidi olmuşam. Bunları yazmaq mənə nə qədər çətindirsə, deməmək, yazmamaq daha çətindir, bağışlanmazdır. Axı kim onun Müşfiqsiz günlərini mənim qədər yaxından seyr edib, yuxusuz gecələrinin, narahat gündüzlərinin, Müşfiqsiz həyatının şahidi olub? Müşfiqsizmi dedim? Bağışla, ana, bağışla! Sən heç Müşfiqsiz oldunmu, ana!?”

*Dibər xanımın xatirələrindən:*

Müşfiq elə nadir istedad idi ki, yeddi il müddətində mən onu dərk edə bilməzdim. Onun coşqun qəlbinin döyüntülərini, parlaq zəkasını bütünlüklə qavramaq üçün uzun illər lazım idi. Mən Müşfiqlə keçirdiyim qısa həyatımı həmişə ömrümün bahar fəsli kimi xatırlayıram. Hər il bahar fəsli gələndə, quşlar səs-səsə verib oxuyandan mən onu baharın qoynunda axtarıram.

Sanıram bülbülün cəh-cəhi səsindi,
Güllərin ətri də xoş nəfəsindi.
O coşqun ürəyin, de, Xəzərimmi,
Yoxsa şeirə olan ilk həvəsindi?!

... Bir gün Dağüstü parka gəzməyə çıxdıq. İşıqlar qoynunda üzən Bakı güzgü önündə dayanıb camalına tamaşa edən gözələ bənzəyirdi.
– Dilbər, görürsən Bakı axşamları nə füsunkar olur?! Bu gözəlliyi, onun hüsnünü vəsf etmək şairdən hünər istəyir. O, insan qəlbini eşqlə, hərarətlə doldurur, ürəyini vəcdə gətirir. İstər-istəməz sən bu gözəlliyə şeir deməli olursan. Qulaq as!

Sevgilim, həyata məhəbbətlə bax!
Bu sulu, torpaqlı dünya gözəldir.
Yer gözəl, göy gözəl, təbiət gözəl,
Asiman gözəldir, dərya gözəldir.
Fəqət sənin eşqin, mənim xəyalım
Bunların hamsından daha gözəldir.

– Ay Müşfiq, elə bil şeiri qabaqcadan yazıbsanmış, nə rəvan şeirdir.

***Ədəbi-bədii gecə*** – Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər və eləcə də ədəbi-bədii gecə keçirilir. Unudulmaz şair Mikayıl Müşfiqin xatirəsinə həsr olunmuş *"Ey şeir yazmaqla keçən günlərim, Siz ki, ən vəfalı günlərimsiniz!..."* adlı *ədəbi-bədii gecəyə* Azərbaycanın görkəmli ədibləri, sənət-söz adamları, oxucular, ədəbiyyat müəllimləri, araşdırmaçılar, ali məktəb tələbələri, məktəblilər dəvət olunur. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqları öncə "Mikayıl Müşfiq haqqında hazırlanmış veriliş" in slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnədə öz yerini alır. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürünü bildirirlər.
*I aparıcı:* Dəyərli qonaqlar, bu il böyük maarifçi, bənzərsiz pedaqoq, ədəbiyyat fədaisi, tərcüməçi, şair Mikayıl Müşfiqin anadan olmasının 110 illiyi tamam olur. Bu münasibətilə buraya

yığışmışıq. Mikayıl Müşfiq həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsl şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir. O, həyata, həyat həqiqətlərinə inanar, vətəni, insanları, təbiəti sevərdi. Şeirə, sənətə dərya böyüklüyündə məhəbbəti vardı. Hərəkətlərində, oturuşunda, duruşunda, şair narahatlığı, şair çılğınlığı yaşayırdı. Ürəkdən yanmadığı, duymadığı heç nəyi qələmə almazdı. Özünün dediyi kimi, yaratdığı şeiri sevərək yaradırdı. Müşfiq deyəndə gözümüzün önündə çoşqun təbiətli, cavan və əzəmətli bir şair canlanır. O, Azərbaycan poeziyasının əbədi gənc şairidir.

*II aparıcı:* Müşfiqin səmimi, dərin orijinal poeziyası mövzuca rəngarəng, məzmunca dolğundur. Zəmanəsi üçün səciyyəvi olan problemlər bu poeziyada öz bədii inikasını tapmışdır. M.Müşfiq özünə qarşı tələbkar olan sənətkarlarımızdan olmuşdur. "Neynəyim ki, fikrim kimi qəşəng olsun nəğmələrim". Bu sual həmişə onu düşündürmüş, poetik formalar sahəsində yeni-yeni kəşflər etməyə sövq vermişdir.

Müşfiqin şeirləri musiqili, ahəngdar, rəngarəng, ölçülü, tutarlı, oynaq qafiyəlidir. Hələ axıcılıq. Müşfiqanə axıcılıq. Müşfiq şairlərimiz içərisində dil zənginliyi etibarilə ən irəlidə gedənlərdəndir. Bəli, sözə hakim, sözü məharətlə yerində işlətməyi bacaran obrazlı dilə malik şairin poeziyası həmişə müasirdir. Oxucuların bədii zövqlərinin inkişafında fəal rol oynayır, qəlbləri oxşayır. Ruhlara bir sərinlik gətirir.

*I aparıcı:* M.Müşfiq poeziyası sözün həqiqi mənasında xəlqi poeziyadır. Xalq ruhunun, xalq mənəviyyatının poetik misralarda həmişə inikasına çalışan Müşfiq "Tərtərhes nəğmələri" ndə xalqa, torpağa bağlılıq haqqında heç də təsadüfi yazmamışdı:

Həqiqəti görməyənin,
Elə könül verməyənin
Batsın adı-sanı, şair!

Elə könül verən şair oğlunu xalq öz könlündə yaşadır, əbədiyyətə aparır. Mikayıl Müşfiq həm də bir şəxsiyyət kimi iz qoyub. O, ilk növbədə vətənini, xalqını, millətini, el-obasını, soykökünü sevən, ona bağlı olan bir vətəndaş-şair olub. O, təpədən dırnağa türkçü idi. Çünki onun damarlarında türk qanı axırdı. O, İslam dininə könüldən bağlı idi, dərin etiqadı, sevgisi vardı. Allah sevdalısı idi. Müşfiq həm də bir qəhrəmanlıq, kişilik mücəssiməsi idi. Bütün amansız, misli görünməmiş əzab-əziyyət, işgəncələrə, psixoloji təsirlərə rəğmən öz ustadı, müəllimi olan Hüseyn Cavidə, Əhməd Cavada dönük çıxmadı, onları satmadı. Bu da Müşfiqin böyüklüyünün bariz nümunəsidir deyilmi?

*II aparıcı:* Mikayıl Müşfiq elə əsərlərə imza atıb ki, onlardan həmişə müdrik ifadə kimi istifadə edirik. Gəlin oxucuların ifasında həmin müdrik ifadələrdən bir neçəsini dinləyək.

Oxucular səhnəyə yaxınlaşır.

*Sevgim mübarizə, sevgilim həyat.*

***

*Bəxtiyardır o şair ki, rübabında mühitinin mahnısını çağırır, sonra bütün gur səsilə gələcəyə hayqırır.*

***

*Ah nə böyük şərəfdir sənətkar olmaq! Nə xoşdur bir his kimi qəlblərə girmək səssiz, sorğusuz, Bütün fənalıqları yıxıb devirmək qara-qorxusuz.*

***

*Ey şeir yazmaqla keçən günlərim, Siz ki, ən vəfalı günlərimsiniz!*

*I aparıcı:* Bu gün Müşfiqin şeirlərinə musiqi yozumu verilir. Sənətkarlar onun yaradıcılığına dönə-dönə müraciət edirlər. Korifey ifaçılardan tutmuş gənc istedadlara qədər Mikayıl

Müşfiqdən oxumağı özlərinə şərəf sayırlar. Unudulmaz Şövkət Ələkbərovanın həzin səslə ifa etdiyi "Oxu tar, oxu tar", Zeynəb Xanlarovanın məlahətlə oxuduğu "Qal sənə qurban", "Sənin gülüşlərin", Nəzakət Məmmədovanın can verdiyi "Maralım", Eyyub Yaqubovun təqdim etdiyi "Ana" mahnıları dinləyici alqışını, rəgbətini qazanmış sənət inciləridir.

*II aparıcı:* Düşünəndə ki, Mikayıl Müşfiq cəmi 29 il yaşayıb heyrətlənməyə, dəhşətə gəlməyə bilmirsən. Belə qısa ömürdə bu qədər mükəmməl yaradıcılığa nail olmaq ancaq istedadın sayəsində mümkün idi. Bir də təqdiqatçılar haqlı olaraq söyləyirlər ki, Mikayıl Müşfiqin qəlbində həmişə səksəkə varmış. Əgər belə olmasaydı, o, 1935-ci ildə "Necə əl çəkim" şeirini nədən yazırdı. Müşfiq sanki sövqi-təbii duyurmuş ki, onu açılan yelkənini bağlayacaq qara yellər tezliklə əsəcək.

Məlum 37-ci il... Şəxsiyyətə pərəstişin qurbanları: Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Seyid Hüseyn... Tufana düşdülər, ürəyimizdə hər an sızıldayan yara açdılar. Onların içində Müşfiq ən cavanı idi.

Şairin faciəli ölümünü səs-küysüz qarşılamağa məcbur olan qələm dostlarından şairə Nigar Rəfibəyli təəssüf hissi ilə deyirdi: Dostumuz, qardaşımız Müşfiqin faciəli ölümü qəlblərimizdə faciəli iz açdı. Bu yaranın ağrısını səssiz keçirmək lazım idi. Ona bərkdən belə ağlamaq olmazdı".

Müşfiqi tez susdurdular. Fəqət o unudulası biri deyil. O həmişə yaşıl rəngdə ümidlər verən sevgi ümmanıdır. Sevgi isə unudulmur, lal olsa belə... O, doğma Azərbaycanımızı hürr, müstəqil, azad görmək arzusundaydı. Bu arzu, istəklər çin oldu, Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu.

*II aparıcı:* 29 il qısa, lakin son dərəcə şərəfli, mənali, parlaq ömür sürən özü demişkən xalqı ilə titrəyən, xalq ilə gülən, vətən üçün yaşayan, vətən üçün ölən Mikayıl Müşfiq XX əsr Azərbaycan ədəbiyyatının klassikinə çevrilib, müasir Azərbaycan poeziyasının banilərindən oldu. Adətən, Nizami, Füzuli, Nəsimi dedikdə gözlərimiz önündə yaşlı bir nuranı kişi

obrazı canlanır. Lakin bu gün 110 yaşlı Mikayıl Müşfiq gözlərimiz önündə elə 29 yaşlı yaraşıqlı, gözəl simada canlanır, xatirələrə köçür.

Mikayıl Müşfiqə daima xalq məhəbbəti, dövlət qayğısı vardır. Xalq onu hər zaman ehtiramla yad edir, hər il Bakıda və Xızıda büstü önündə tədbirlər keçirdilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şairin 100 illik yubileyi respublikada təntənəli şəkildə qeyd olunub. Hazırda şairin 110 illiyinə hazırlıq işləri gedir.

*I aparıcı:* Bir zaman dahi dramaturq Cəfər Cabbarlının ölümünə həsr etdiyi şeirində söylədiyi fikriləri bu gün Müşfiqin özünə aid etmək olar.

... Fəqət ölən deyil onun sənəti,
Bağlamış adına əbədiyyəti.

Fikirlərimizi Mikayıl Müşfiqin 1931-ci il yanvarın 27-də qələmə aldığı bu sətirlərlə bitirmək istərdik: “İnsanın ömrü bir çiçəyin ömründən daha qısadı. Çiçək solur və tökülürsə, bu gün gülən, sevilən və sevdiyinin xəyalı ilə yaşayan bir insan da sabah bütün istək və arzularına əlvida edərək həmişəlik gözlərini yummağa məhkumdur. Kim bilir, bəlkə də qəbrinin üstündə yaşıl otların belə göyərmək ehtimalı yox! Lakin bu heç də qorxulacaq bir şey deyildir. Həyatda əbədi və daimi yaşamaq hər kəsin öz əlindədir. Cəmiyyət həyatı əbədi və ölməzdir. O, dalğalanan, daşan və inkişaf edən bir seldir ki, getdikcə yeni dalğalar əskilərini basaraq köpüklənir. Bu sel ölümsüz və sonsuzdur. Bu selin ağuşuna atılanlar və öz xüsusi həyatlarını cəmiyyət həyatına fəda edənlər üçün həyat əbədi və daimidir”. Böyük məna və fəlsəfi fikir var bu sətirlərdə deyilmi? Sanki qulağıma Müşfiqin öz səsində bir səs gəldi:

Gəlmiş hüzuruna bir qara dağlı,
Bir qara qulundur, qolları bağlı,
Gəl, çəkmə könlümə sən hicran dağı,
Gümüş topuğunda xal, sənə qurban.

## Ədəbiyyat siyahısı


### *Əsərləri*

Seçilmiş əsərləri : 3 cilddə. I cild : şeirlər (1925-1937). - Bakı : Avrasiya Press, 2008. - 242 s.

Seçilmiş əsərləri : 3 cilddə. II cild : müxtəlif illərin şeirləri və poemalar. - Bakı : Avrasiya Press. - 246 s.

Seçilmiş əsərləri : 3 cilddə. III cild : uşaqlar üçün mənzum nağıllar və tərcümələr. - Bakı : Avrasiya Press. - 256 s.

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2005. - 240 s. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri : şeirlər, poemalar. - Bakı : Şərq-qərb, 2004. - 352 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Könlümü al, oxu! : şeirlər, poemalar. - Bakı : Maarif, 2002. - 96 s. - (Məktəb kitabxanası).

Mən şirin ləhcəli bir bülbüləm... : [şeirlər, poemalar, mənzum oçerk]. - Bakı : Kitab klubu, 2014. - 400 s.

Şəngül, Şüngül, Məngül : kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 19 s.

Şəngül, Şüngül, Məngül : nağıl. - Bakı : Altun kitab, 2013. - 24 s. : rəngli il. - (Altun klassika : 6-9 yaş).

### *Elektron resurs*

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda)

### *Kitablarda*

Bayram axşamı ; Zəhra üçün : şeirlər // Yusifbəyli R. Uşaq ədəbiyyatı. – Bakı : Şirvannəşr, 2006. – S. 91-92.

Ölkəm ; Ana ; Xalı və b. : şeirlər // XX əsr Azərbaycan poeziyası antologiyası. I kitab : 1920-ci illərin poeziyası. - Bakı : Elm, 2009. - S. 362-395.

Şəngül, Şüngül, Məngül : mənzum nağıl // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. - C. 2. - S. 96-105.

Şəngül, Şüngül, Məngül ; Kəndli və ilan // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 2 cilddə : Klassik və müasir uşaq poeziyası. - Bakı : Renessans, 2016. – C.2. – S. 98-119.

***Əsərləri dövri mətbuatda***

Ana ; Oxu, tar.! ; Xalı ; Ölkəm : Müşfiqdən Müşfiqanə şeirlər // Yeni Azərbaycan. - 2016. - 9 yanvar. - № 4. - S. 7.

Ey gənc yolçu : şeir // Füyuzat. - 2016. - № 4. - S. 62-63.

Qızım üçün : şeir // İşıq. - 2016. - № 2. - S. 43.

Vətəndaş : şeir // Füyuzat. - 2016. - № 3. - S. 25.

Yalqız ağac : şeir // Füyuzat. - 2013. - № 4. - S. 62.

Yenə o bağ olaydı : şeir // Yeni Azərbaycan. - 2016. - 9 yanvar. - № 4. - S. 7.

***Haqqında***

***Kitablarda***

**Əhmədov B.** Mikayıl Müşfiq // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Apostrof, 2010. - C. 2. - S. 185-192.

**Ələkbərli N.** Üç budaq: Mikayıl Müşfiq // Üç budaq. - Bakı : Şirvannəşr, 2007. - S. 90-142.

**Kənan A.** Öz-özünü yandıran şair : Mikayıl Müşfiq // XX əsrdə repressiyaya məruz qalanlar. – Bakı : Azərnəşr, 2011. - S. 31-47.

**Məmmədli F.** Allah tərəfindən sevilənlər tez ölür : Mikayıl Müşfiq haqqında // Seçilmiş əsərləri. - Bakı : Nurlan, 2009. – C.3. - S. 527-530. - Məqalə ilk dəfə "Azərbaycan" jurnalının 1998-ci il 2-ci sayında dərc edilmişdir.

**Mikayıl Müşfiq (1908-1939)** // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. C. 1. - S. 192-210.

**Mikayıl Müşfiq (1908-1939)** // **Azərbaycan uşaq ədəbiyyatı** antologiyası : 2 cilddə : Klassik və müasir uşaq poeziyası. - Bakı : Renessans, 2016. – C.2. – S. 97.

**Mustafayeva X.** Mikayıl Müşfiq // Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Elm, 2011. – S. -235-237.

**Rüstəm S.** Mikayıl Müşfiq  // Seçilmiş əsərləri 3 cilddə. - Bakı : Şərq-Qərb, 2005. – C.2. - S. 244-247.

**Sadıq F.** Müşfiq şeirinin şəfəqində yol getmək olar : Mikayıl Müşfiq - 80 // Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. - S. 245-247.

**Yusifoğlu R.** Mikayıl Müşfiq // Uşaq ədəbiyyatı. – Bakı : Şirvannəşr, 2006. – S. 89-90.

***Dövri mətbuatda***

**Abbaslı T.** Çağlar Müşfiq... : Ömrü yarımçıq, sözü bütöv, irsi əbədi Mikayıl Müşfiq  // Mədəniyyət. - 2016. - 6 yanvar. - № 1. - S. 11.

**Abbaslı T.** Əbədiyanar qalmışımız : bütün Azərbaycan könüllərinin "həri"sini almışımız, hər cür duyar-duyğuları da "Oxu, Tar" sayağı çalmışımız... // Mədəniyyət. - 2017. - 7 iyun. - № 43. - S. 13.

**Ağayeva K.** Dağların sinəsində bir tar oxuyur : Azərbaycanın xalq şairi, Mikayıl Müşfiqin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 23 may. - № 32/33. - S. 14.

**Cahangirova N.** "Sevgi vardır ki..." : bir daha M.Müşfiq haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 23 yanvar. - № 4/5. - S. 21.

**Cahangirova N.** Azaddır hər günəş nur saçmasında : Mikayıl Müşfiq yaradıcılığında poema janrının özəllikləri // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - № 36/37. - S. 25.

**Cahangirova N.** Müşfiqin Hamid sevgisi // Ədəbiyyat qəzeti. - 2016. - 12 mart. - № 10. - S. 30-31.

**Cəbrayıl Q.** Yenə o bağ olaydı : [şair Mikayıl Müşfiqin yaradıcılığı haqqında] // Mədəniyyət.az. - 2017. - № 1. - S. 14-17.

**Cəfərov N.** Mikayıl Müşfiq yaxud talesiz şairin tale kompleksləri // Ədəbiyyat qəzeti. - 2015. - 31 oktyabr. - № 56. - S. 4-5.

**Dünən bir şairin** keçdim yanından : Mikayıl Müşfiqin xatirəsi yad edilib // Mədəniyyət. - 2014. - 8 yanvar. - № 1. - S. 13.

**Əhmədalılar T.** Oxu, yar... : Mikayıl Müşfiq haqqında // Mədəniyyət. - 2014. - 6 iyun. - № 43. - S. 12.

**Əhmədgil A.** Mikayıl Müşfiq: vəhy və ya uzaqgörənlik // Ədəbiyyat qəzeti. - 2014. - 3 oktyabr. - № 38. - S. 13.

**Əhmədov N.** Səni kim unudar? : Mikayıl Müşfiq-105 // Palitra. - 2014. - 16 aprel. - № 64. - S. 13.

**Əliyeva A.** Səni kim unudar... : Mikayıl Müşfiq - 110 / A. Əliyeva // Mədəniyyət. - 2018. - 25 may. - № 41. - S. 13.

**Xəlilzadə F.** Əbədiyyət nəğməsi : Mikayıl Müşfiq - 105 // Kaspi. - 2013. - 5 iyun. - № 100. - S. 11.

**Xəlilzadə F.** Müşfiqli günlərimin əbədiliyi və ya yuxalmış bir ürəklə ayrıldığım xanım // Kaspi. - 2017. - 13 sentyabr. - № 148. - S. 11.

**Kamal R.** "Oxu, gözəl" : S.Vurğunun "Oxu, gözəl" və M.Müşfiqin "Oxu" şeirlərinin təhlili // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 29.

**Kamal R.** O dalğın çoçuq : [şair Mikayıl Müşfiqin yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 4 iyun. - № 21. - S. 5.

**Kamal R.** Polisemiya qurbanı şairlər // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 27.

**Mikayıl Müşfiq** // Yada düşdü. - 2013. - № 3. - S. 72-73.

**Mikayıl Müşfiqin 110** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 may 2018-ci il) // Azərbaycan. - 2018. - 18 may. - № 111. - S. 1.

**Muxtar R.** Mənim oyaq yuxularım : Mikayıl Müşfiq : XIII yuxu // Səs. - 2017. - 3 mart. - № 40. - S. 12.

**Müşfiq Ş.** Müşfiq poeziyasının notlardakı sədası // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 12.

**Novruz S.** Ruhuma toxunmayın : [Mikayıl Müşfiqin qətlindən 75 il keçir] // Ədəbiyyat qəzeti. - 2013. - 11 yanvar. - № 1. - S. 4.

**Osmanoğlu M.** Qu quşunun nəğməsi və ya şeirimizin faciəsi : şair Mikayıl Müşfiq haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 5.

**Salmanlı R.** Müşfiq ucalığı : Mikayıl Müşfiq haqqında // Azərbaycan. - 2014. - 6 sentyabr. - № 193. - S. 6.

**Sözümüzün, şeirimizin ömrünə** ömür calamış, nakam ömürlü şair... : Mikayıl Müşfiq // Yeni Azərbaycan. - 2016. - 9 yanvar. - № 4. - S. 7.

**Yusifli C.** Müşfiq - yuxuda yazılan şeirlər : bir şeirin dedikləri // Ədəbiyyat qəzeti. - 2014. - № 27.

*Müşfiqə həsr olunmuş əsərlər*

**Axundzadə D.** Müşfiqli günlər. - Bakı : XAN nəşriyyatı, 2015. - 175 s. - ("XAN" Xatirə Ədəbiyyatı ; VI kitab).

**Bayram T.** Müşfiqin adı : şeir // Seçilmiş əsərləri. – Bakı : Lider, 2005. – S. 159.

**Dalğın N.** Ən şirin layla : Mikayıl Müşfiqin 60 illiyinə // Ürəklərdə bəslənən sevdaya şükür. - Bakı : MBM, 2008. - S. 83.

**Dəmirçi Z.** Müşfiq : Mikayıl Müşfiqə həsr olunmuş poema // Qayalı. - Bakı : UniPrint, 2008. - S. 321-331.

**Dilbazi M.** Müşfiqi öldürdülər : şeir : ithaf // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S. 115-116.

**İsgəndərzadə M.** Səni kim unudar : Mikayıl Müşfiqə həsr olunur // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 4. - S. 30-111.

**Kərim Ə.** Müşfiqə : şeir. – Bakı : Lider, 2004. – S. 131-132.

**Qurbansoy F.** Göylərin lacivərd ətəklərində : sənədli povest-kollaj. - Bakı : Qərənfil MMC, 2008. - 240 s.

**Mahcamal.** Müşfiqə rekviyem // Azərbaycan. - 2013. - № 11. - S. 129-132.

**Rza R.** Qızıl gül olmayaydı : Mikayıl Müşfiqə həsr olunmuş poema // Seçilmiş əsərləri. 5cilddə. - Bakı : Öndər, 2005. – C. 4. - S. 216-262.

**Səfərli İ.** Həsrət nəğməsi : Müşfiq üçün : şeir // Seçilmiş əsərləri. – Bakı  : Lider, 2005. - S. 173-174.

**Xəndan R. (Zəka).** Mikayıl Müşfiqə : şeir // Azərbaycan cahandır. - Bakı : Mütərcim, 2009. - S. 212-213.

# Şeirimizin sübh çağı Mikayıl Müşfiq
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 36
Çapa imzalanmışdır: 30.04.2018
Tirajı:100
Pulsuz